# Vətən sənə oğul dedi



1988-ci ildə arxasında rus imperiyasının dayandığı mənfur ermənilər ölkəmizə qarşı elan olunmamış müharibəyə başladılar. Soydaşlarımız öz əzəli torpaqlarından qovuldular, onlara qarşı misli görünməmiş cinayətlər törədildi. Yağı düşmən irəlilədikcə, kəndlərimiz, şəhərlərimiz dağıdıldı, viran qoyuldu, yandırıldı, tarixi abidələrimiz məhv edildi, əhalinin var-dövləti, mal-qarası talanaraq Ermənistana daşındı. Belə ağır günlərdə vətənin igid oğulları silaha sarılaraq əzəli-əbədi düşmənimiz olan erməni cəlladlarının qarşısına çıxdılar. Torpaqlarımızın azadlığı uğrunda mətanətlə döyüşən belə vətənpərvərlərdən biri də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının baş leytenantı Elşad Məmmədhənifə oğlu Yəhyayev idi.

Elşad Yəhyayev 1966-cı ildə Şəki şəhərində doğulmuşdu. Ailənin ikinci övladı idi. Atası Məmmədhənifə kişi və anası Elmira xanım beş övladını özləri kimi zəhmətkeş və vətənpərvər ruhda böyütmüşdülər. Elşad ibtidai təhsilini Şəkidəki 12 saylı orta məktəbdə almışdır.

1983-cü ildə ailənin Bakı şəhərinə köçməsilə əlaqədar olaraq Elşad Xətai rayonundakı 56 saylı orta məktəbdə təhsilini davam etdirir (hazırda həmin məktəb Elşadın adını daşıyır). Orta məktəbi əla qiymətlərlə bitirərək sənədlərini Bakı Dövlət Universitetinin hüquq fakültəsinə versə də, müsabiqədən keçmir. Bundan sonra Neft-yağ Zavodunda işləməyə başlayır. Lakin oxumağa olan həvəsi onu sakit buraxmır. Hərbi sahəyə böyük marağı olduğundan Xətai Rayon Hərbi Komissarlığına müraciət edərək oxumağa göndərilməsini xahiş edir. Elşad bu yolla Dzerjinski adına “Qırmızı Bayraq”lı Saratov Ali Hərbi komandirlik məktəbinə daxil olur. Nümunəvi tələbə kimi zabitlərin hörmətini qazanır və çox keçmədən əvvəl şöbə komandirinin müavini, daha sonra isə rota komandiri vəzifələrinə təyin edilir. 1990-cı ildə məktəbi bitirən Elşadın təyinatı Almatı şəhərinə verilir. Lakin o, etiraz edərək müharibə gedən vətəninə — Azərbaycana dönərək doğma torpaqların azadlığı uğrunda döyüşəcəyini bildirir. Çox təkiddən sonra vətənə dönməyə müvəffəq olur və Daxili Qoşunların hərbi hissələrinin birində bölük komandiri kimi işə başlayır. Bir müddətdən sonra rota komandiri vəzifəsinə təyin edilir. 1992-ci ildə erməni daşnakları ərazilərimizi dağıdaraq, məhv edərək irəlilәyəndə baş leytenant Elşad Yəhyayev də döyüşlərə atılır. İlk döyüşü Ağdam rayonunun Papravənd kəndinin düşməndən təmizlənməsi uğrunda olur. 42 günlük döyüşlərdə ermənilər bu ərazilərdə bir addım belə irəliləyə bilmirlər. Elşadın başçılıq etdiyi bölük Yeni Qaralar, Sırxavənd, Ağdərə, Aranzəmin kəndləri uğrunda gedən döyüşlərdə ön sıralarda olur. Belə döyüşlərin birində yağı düşmən mühasirəsinə düşdüklərini görən cəsur komandir özünü itirmədən bölüyü oradan sağ-salamat çıxarmağa nail olur. Axırıncı döyüş yeri olan Əsgəranda başından güllə yarası alan Elşad hospitalda tibbi yardım alaraq başı sarıqlı halda yenidən müharibənin qaynar nöqtəsinə — Əsgəran uğrunda gedən döyüşlərə yollanır. Onun 15 nəfərdən ibarət dəstəsi böyük şücaətlər göstərərək düşməni geri çəkilməyə məcbur edir. Daxili Qoşunların ön cəbhədə göstərdiyi igidlikləri eşidən ulu öndər Heydər Əliyev demişdir: “Daxili Qoşunların, əsasən cəbhə bölgəsində olan hissənin xidmətini xüsusi qeyd etmək istəyirəm. Bu gün onlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Onlar orada böyük işlər görürlər. Azərbaycanın torpaqlarını qəhrəmanlıqla müdafiə edirlər... Belə döyüşçülərin işi hər birimizi sevindirir və böyük hörmət hissi doğurur”.

1992-ci ildə Əsgəran uğrunda gedən döyüşlərdə böyük itkilər verərək geri oturdulan düşmən iyun ayının 19-da səhərin alatoranında 3 tərəfdən qəflətən hücuma keçir və yenidən qanlı döyüşlər başlanır. Elşad pulemyotun arxasına keçərək düşmənin başına aramsız odlar yağdırır. O, yoldaşlarından iki nəfərin yaralandığını görür və onlardan birini güllə yağışının altından çıxarır. İkinci yoldaşını xilas etmək istərkən sinəsi düşmən snayperinə tuş gəlir. O, Vətən, torpaq uğrunda şəhid olaraq qəhrəmanlıq zirvəsinə ucalır. Sonralar Elşadın döyüş yoldaşları deyirdilər ki, o, cəbhədə olarkən hər axşam döyüşçüləri bir-bir yoxlayar, problemləri ilə maraqlanar, lazım gələndə kömək edərdi. Vuruşma zamanı sıradan çıxan bütün texnika növlərini təmir edər yenidən yığar, sonra da birinci olaraq özü sınaqdan keçirərdi.

1993-cü ildə Elşad Yəhyayev “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görülüb. 2005-ci ilin iyul ayında isə ölkə başçısı İlham Əliyev “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Fərman imzalayıb. Elmira xanım Elşadın otağında ona aid guşə təşkil edib. Guşədə şəkilləri, büstü, Elşadın öz əlilə düzəltdiyi şəkil albomları, çəkdiyi şəkillər və digər əşyaları yer alıb. Ananın ürəyi qövr edəndə həmin guşəyə çəkilərək oğlu ilə söhbət edir.

Heç vaxt heç nədən gileylənməyi sevməyən Elmira xanımdan söhbətimiz əsnasında Elşadın adını daşıdığı 56 saylı məktəbdə ruhuna göstərilən münasibətlə bağlı soruşduq. Məlum oldu ki, Elşadın təhsil aldığı və sonradan adını daşıdığı Bakının Xətai rayonundakı 56 saylı orta məktəbdə vaxtilə onun adına guşə var imiş. Məktəb təmir edildikdən sonra həmin guşə guya koridorun ümumi dizaynına “xələl gətirdiyinə” görə məktəb direktoru Hicran Qarayeva onu görünməyən yerdə — koridorun o başındakı ayaqyolunun yanında təşkil etməyi lazım bilib. Guşənin yerində isə özünün tanınmış şəxslərlə birlikdə çəkilmiş şəkillərini asdırıb. Elmira xanım buna etiraz edəndən bir müddət sonra guşə tamamilə ləğv edilib. Bu azmış kimi Elşadın məktəbin baxımlı yerində qoyulan büstü də təmirdən sonra ağacların altına, gözdən uzaq yerə köçürülüb. Hicran müəllimə bilməlidir ki, Elşad Azərbaycan torpaqlarının azadlığı, müstəqilliyi uğrunda şəhid olaraq Azərbaycanın Milli Qəhrəmanı zirvəsinə ucalıb. Ona və onu dünyaya gətirən anaya, ailəsinə, hörmətlə yanaşmaq hər kəsin borcudur. Ulu öndər Heydər Əliyevin vaxtilə fəxarətlə Elşada, onun komandirlik etdiyi bölüyə öz hörmət və ehtiramını bildirməsi məktəb direktoru və onun kimiləri üçün nümunə deyilmi?

—Düz 23 il doğulduğu Şəki şəhərindəki 12 saylı məktəb Elşadın adını daşıyıb və məktəb divarında onun barelyefi vurulub. Lakin məktəb binası sökülüb yenidən inşa ediləndən sonra adı məktəbin üzərindən götürüldü. Yaşadığımız evin divarında da oğlumun barelyefi qoyulub. Çox arzu edirəm ki, həmin məktəbə, mümkün olmasa heç olmasa, Şəkidə yaşadığımız küçəyə Elşadın adı veriləydi.

Bəli, bu vətən Elşad kimi mərd, cəsur oğulların sayəsində qorunur. Bu gün də soyuq səngərlərdə neçə-neçə elşadlar ayıq-sayıq Vətənin, torpağın keşiyində durublar. Bizlər sakit, firəvan həyatımıza görə onlara borcluyuq.

**Ədilə QOCAYEVA.**